Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
Layihənin istiqaməti:
" İctimai və dövlət maraqlarının müdafiəsi"

# "Müstəqillik yollarında: Liderlik missiyası"

## Azərbaycanın dövlət müstəqilliyinin 25-ci ildönümünə həsr olunan dəyərli əsər

**Xalqımızın ən böyük nailiyyətlərindən olan dövlət müstəqilliyimizin qazanılmasının 25-ci ildönümünün təntənəli şəkildə qeyd edilməsi geniş vüsət alıb. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin imzaladığı sərəncam da bu sahədə bir sıra işlərin geniş vüsətlə aparılmasına imkan yaratdı.**

Verilən sərəncam və xalqımızın XX yüzillikdə əldə etdiyi ən böyük nailiyyətin ildönümü ziyalılarımızın da üzərinə müəyyən vəzifələr qoyur. Dövlət müstəqilliyinin əldə edilməsindən ötən müddət ərzində Azərbaycanın qazandığı nailiyyətlər və görülən işlərə ziyalı münasibətilə fərqlənən elmi əsərlərin meydana gəlməsi də əsas vəzifələrdən biri idi. Bu yaxınlarda AMEA Naxçıvan Bölməsinin elmi işçiləri, filologiya üzrə fəlsəfə doktoru, dosent Ramiz Qasımov və filologiya üzrə fəlsəfə doktoru, dosent Zülfiyyə İsmayılın həmmüəllifliyi ilə ərsəyə gələn və dövlət müstəqilliyinin əldə edilməsinin 25-ci ildönümünə həsr olunan "Müstəqillik yollarında: Liderlik missiyası" əsəri də məhz ziyalı sözü və münasibətilə diqqəti cəlb edir. Ümumiyyətlə, əsər Azərbaycan xalqının dövlət müstəqilliyini qazanmasında ümummilli lider Heydər Əliyevin göstərdiyi misilsiz xidmətləri, dövlətçiliyin möhkəmləndirilməsi, siyasi xəttin, inkişaf konsepsiyasının müəyyənləşməsində oynadığı rolu, qazanılan nailiyyətləri təhlil və təqdim edir.

Əsər Azərbaycanın ümumi inkişaf istiqaməti və xronikasını təqdim etmək baxımından mükəmməl struktura malikdir. Kitabın birinci bölməsi Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin yorulmaz fəaliyyəti və misilsiz xidmətlərinə, bu görkəmli şəxsiyyətin müəyyənləşdirdiyi siyasi xəttə və onun ölkəyə qazandırdığı əvəzsiz nailiyyətlərə həsr olunub. Əsərdə Azərbaycanın keçdiyi inkişaf yolu ilə bağlı ayrı-ayrı məqalələr təqdim edilib. "Azərbaycan xalqının ümummilli idealları və Heydər Əliyevin liderlik missiyası", "Müstəqilliyimizi əbədi və dönməz edən şəxsiyyət", "Milli qurtuluş tarixinin öndəri", "Milli siyasətimizin atası", "Əsrin möqaviləsi"- Əsrimizin mücadiləsi: böyük mücadilənin əzəmətli lideri" kimi məqalələrdə ulu öndərin dövlət müstəqilliyinin qazanılmasındakı misilsiz xidmətləri, yorulmaz fəaliyyəti, dövlətçilik xətti və s. əhatəli şəkildə öz təqdimini tapır. Bölməyə başlanmazdan əvvəl ümummilli liderin müdrik kəlamının təqdim edilməsi əsərin, konkret isə bölmənin mahiyyətini açmağa bütün aydınlığı ilə imkan verir. Bölmə daxilində həm də dahi liderin Azərbaycana qazandırdığı əvəzsiz uğurlar, o cümlədən milli ordunun yaranmasında ulu öndərin sərkərdəlik əzmi və uzaqgörənliyi, milli dəyərlərimizə, o cümlədən ana dilimizə, adət-ənənə və dövlətçilik dəyərlərimizə, ucalıq rəmzi olan bayrağımıza göstərilən qayğı və diqqətdən əhatəli şəkildə söhbət açılır. Qəti və konkret şəkildə bildirilir ki, ümummilli liderin müdrik siyasəti olmasaydı, Azərbaycan dövlət müstəqilliyi qazana və milli varlığı və dəyərlərini də qoruyub saxlaya bilməzdi. Bu mənada "Ərazi bütövlüyümüzün qoruyucusu, milli ordumuzun qurucusu", "Heydər Əliyevlə ucalan bayrağımız", "Milli mənəviyyatın şəxsiyyət təcəssümü", "Heydər Əliyev şəxsiyyəti vətəndaşlığın, azərbaycanlılığın və azərbaycançılığın meyarıdır", "Heydər Əliyev və milli dil siyasəti" başlıqlı yazılar bu görkəmli şəxsiyyətin zəngin və milli xarakteri, mənsub olduğu xalqın milli dəyərləri və onun mühafizəsinə göstərdiyi xidmətləri barədə konkret faktlarla təqdim edilir. Əsərdə həmçinin müdrik liderin adı ilə bağlı dövlət siyasəti və onun ayrı-ayrı istiqamətləri təhlildən keçirilir, Azərbaycana qazandırdığı nailiyyətlər göstərilir. Əsərdə əmin-amanlıq, sülh elçisi olan dahi liderin ölkəmizə bəxş etdiyi sülh və əmin-amanlıq nailiyyəti də təhlil olunur. Dahi liderin elmin və ədəbiyyatın inkişafına göstərdiyi qayğı da əsərdə təhlil edilərək, oxucuların diqqətinə çatdırılmışdır.




Kitabda diqqəti cəlb edən özünəməxsus məziyyətlərdən biri də budur ki, ulu öndər Heydər Əliyevin müdrik siyasi xəttinin uğurla davam etdirilməsindən doğan müvəffəqiyyətlər sonuncu iki bölmədə əks etdirilmişdir. İkinci bölməyə başlamazdan əvvəl Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin Azərbaycanla bağlı müdrik kəlamları, özünün davam və inkişaf etdiriləcək ideyaları ilə bağlı fikirləri əksini tapıb. Bu müdrik fikirlərdə dahi liderin: "Mən ona özüm qədər inanıram" - deyə bəhs etdiyi böyük siyasətçi, bacarıqlı diplomat və ləyaqətli siyasi varis cənab İlham Əliyev haqqındakı təəssüratları epiqraf olaraq seçilib. Sonra dahi liderin siyasi kursunun uğurlu davamçısı, cənab İlham Əliyevin həyat və fəaliyyət amalı ilə bağlı müdrik fikirlər oxucuların diqqətinə çatdırılıb. Sonrakı məqalələrdə ümummilli lider Heydər Əliyevin müdrik siyasi kursunun cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi və Azərbaycana qazandırdığı nailiyyətlər təhlil olunub. "Qələbə əzmli lider", "İlhamlı sabahın aydın, Azərbaycan", "Böyük zəfərlərə aparan lider" başlıqlı məqalələrdə cənab İlham Əliyevin ölkəyə rəhbərlik etməsindən sonra Azərbaycanın keçdiyi sürətli inkişaf yolu, bölgələrin abadlaşması, infrastruktur layihələrin uğurla həyata keçirilməsi, ölkədə özəl sektorun inkişafı və iqtisadiyyatın dayanıqlılığının təminatı, Azərbaycanın dünyada artan nüfuzunun güclənməsi, beynəlxalq təşkilatlara üzvlüyü və maraqlarının beynəlxalq aləmdə dəstəklənməsi, aparılan uğurlu ordu quruculuğu və başqa prioritet məsələlər faktiki materiallar əsasında təhlil və təqdim edilib.

Kitabın üçüncü bölməsində Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında uğurla davam etdirilən Heydər Əliyev siyas kursunun blokada şəraitində olmasına baxmayaraq, muxtar respublikaya qazandırdığı sürətli inkişaf, abadlaşma və dirçəliş əsas təqdimat obyektinə çevrilir. Muxtar respublika rəhbərinin "Yol düzgün seçiləndə, milli maraqlara və dövlətçiliyə sədaqət olanda, adamların qayğısı və ehtiyacları hədəfə alınanda istənilən möcüzəni yaratmaq olar" fikri seçilərək, həm fəaliyyət prinsipi, həm də Heydər Əliyev siyasi kursunun fəlsəfəsi kimi epiqraf olaraq təqdim olunub. Bu bölmədə təqdim olunan "Naxçıvan möcüzəsini yaradan zəka", "Dinamik inkişafın Naxçıvan nümunəsi", "Naxçıvanın quruculuq və inkişaf fəlsəfəsi", "Ordu quruculuğunun Naxçıvan nümunəsi", "Naxçıvan Muxtar Respublikasında ictimai sabitlik təmin olunur", "Naxçıvandan dalğalanan müstəqillik rəmzi" kimi məqalələrdə Naxçıvan Muxtar Respublikasındakı genişmiqyaslı abadlıq-quruculuq işlərinin nailiyyəti olan müasir və abad Naxçıvan, inkişaf etməkdə olan muxtar respublikanın iqtisadiyyatı, yaranan yeni istehsal sahələri, uğurla aparılan kənd təsərrüfatı quruculuğu və digər nailiyyətlər əsas mövzu və şərh olunan məsələlər sırasındadır. Blokadaya alınan Naxçıvanın alınmaz qala kimi qorunmasına imkan yaradan güclü və qüdrətli ordu hissələri, yaradılan nümunəvi xidmət yerləri, hərbi təlimlər prosesində nümayiş etdirilən peşəkarlıq, davamlı və ardıcıl şəkildə aparılan ordu quruculuğu Naxçıvan Muxtar Respublikasında yürüdülən siyasi kursun uğurlu nəticələri kimi konkret faktlar əsasında təqdim edilir. Azərbaycanın dövlət müstəqilliyinin qazanılmasında Naxçıvanda ulu öndər Heydər Əliyevin rəhbərliyi altında aparılan milli mücadilə, müstəqilliyin və milli dirçəlişin təməlində dayanan dövlətçilik tədbirləri, Naxçıvanda həyata keçirilən uğurlu işlər və verilən tarixi qərarlar, dövlət müstəqilliyimizin rəmzi olan üçrəngli bayrağımızın məhz ilk dəfə Naxçıvanda qaldırılması, Naxçıvandan başlanan xilaskarlıq yolu və başqa bu kimi əhəmiyyətli mövzular əhatəli və konkret faktlar işığında qələmə alınıb.

Beləliklə, əsər Azərbaycan xalqının dövlət müstəqilliyinə həsr olunan qiymətli çap məhsullarından biridir. Əsərin elmi redaktoru akademik İsmayıl Hacıyev, rəyçiləri AMEA-nın müxbir üzvü, tarix üzrə elmlər doktoru, professor Fəxrəddin Səfərli və AMEA-nın müxbir üzvü, filologiya üzrə elmlər doktoru, professor Əbülfəz Quliyevdir. Kitab elmi-publisistik dildə yazıldığı üçün rahat oxunaqlıdır. Naxçıvanın "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyində çap edilən əsər həm də nəfis tərtibata malikdir. Kitab bütün oxucu kütləsinin diqqət və marağına səbəb olacaq bir əsərdir. AMEA Naxçıvan Bölməsinin elmi işçiləri olan filologiya üzrə fəlsəfə doktoru, dosent Ramiz Qasımov və filologiya üzrə fəlsəfə doktoru, dosent Zülfiyyə İsmayılın həmmüəllifliyi ilə dövlət müstəqilliyinin əldə edilməsinin 25-ci ildönümü münasibətilə çap olunan "Müstəqillik yollarında: Liderlik missiyası" əsərinin hər bir oxucunun marağına səbəb olacağına inanırıq.

**Əbülfəz QULİYEV,**
**AMEA-nın müxbir üzvü,**
**filologiya üzrə elmlər doktoru,**
**professor**

***Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında hazırlanıb.***